# Azərbaycan Müəllimlər İnstitutunun Şəki filialının «Əlavə təhsil» sahəsi əməkdaşlarının Qəbələ səfəri

## Qəbələ rayonunun yaradıcı müəllimləri

Hamıya yaxşı məlumdur ki, ixtisasartırma sistemi əvəzedilməsi mümkün olmayan unikal bir sistemdir. Bu sistem müəllimlə, təhsillə bağlı olan hər hansı bir problemə müəyyən operativliklə reaksiya vermək qabiliyyətinə malikdir. Onun vasitəsilə təlimin keyfiyyət səviyyəsini yüksəltmək mümkündür. Bu baxımdan ixtisasartırma sistemi keyfiyyətli idarəetmə kanalı hesab edilə bilər.

Bu gün yüksək təhsilli mütəxəssis hazırlanması dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilib. Bu prosesin fəlsəfəsi ümummilli lider Heydər Əliyevin **«Biz iqtisadi potensialımızı insan kapitalına çevirməliyik»** çağırışında öz əksini tapmışdır. İnsan kapitalı yaratmaq, cəmiyyət üçün hər bir sahə üzrə yüksək ixtisaslı mütəxəssislər ordusu hazırlamaq deməkdir. Təhsilin məqsədi isə şagirdlərin idrak fəallığını, ümumi inkişafını ləngidən mövcud «yaddaş məktəb»indən «təfəkkür və düşüncə məktəbi»nə keçmək və bu əsasda ümumi təhsilin müasir modelini qurmaqdan ibarətdir.

Fasiləsiz təhsil sitemində müəllim hazırlığının müasir modellərə uyğun aparılması son dərəcə vacibdir. Çünki təhsil mürəkkəb, çoxparametrli bir sistemdir. Müasir tələblər baxımından təhsil müəssisələrinin qarşısında duran əsas məqsədlərin müvəffəqiyyətlə həyata keçirilməsi, milli təhsilimizizn bəşəri dəyərlərə əsaslanan dünyəvi təhsil sisteminə çevrilməsi başlıca məqsədimizdir.

Müəllim əməyini əsl vətənpərvərlik nümunəsi adlandıranlar heç də səhv etmirlər. Belə bir obrazlı ifadə də var ki, müəllim dəyişəndə cəmiyyət də dəyişir. Bu mənada ictimai rəy hər bir müəllimin fəaliyyətinin güzgüsü, məhək daşıdır. Nahaq yerə demirlər ki, hər öyrədən müəllim deyil, o kəs müəllimdir ki, ondan öyrənirlər. Həm də o müəllim yaxşı öyrədə bilər ki, onu yaxşı öyrədiblər.

Biz—Azərbaycan Müəllimlər İnstitutunun (AMİ) Şəki filialının **«Əlavə təhsil»** sahəsinin əməkdaşları əsl öyrədən müəllim axtarışı məqsədilə filialın fəaliyyət dairəsinə daxil olan Qəbələ rayonuna ezam olunduq. Çünki ümumtəhsil məktəblərində müəllimlərin qabaqcıl iş təcrübələrini, ixtisasartırmaya ehtiyacını müəyyənləşdirmək, üzə çıxarmaq «Əlavə təhsil» sahəsinin prioritet istiqamətlərindən biridir.



İlk ünvanımız Qəbələ rayonunun 3 saylı tam orta məktəbi oldu. V sinfin qapısını döydük. Rus bölməsində Vəfa Səmədovanın ingilis dili dərsi idi.

**Haşiyə:** Müəllim Səmədova Vəfa Cəbrayıl qızı 1977-ci idə Qəbələ şəhərində anadan olub. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Dillər İnstitutunun filologiya fakültəsində ingilis dili ixtisasına yiyələnib. 2003-cü ilin iyun ayında Lider Qadınlar üçün «Sülhyaratma gender bərabərliyinin təmin edilməsi» mövzusunda treninqinin iştirakçısı olub. 2003-cü il sentyabr ayının 27-də keçirilən Azərbaycan qadınlarının II qurultayının iştirakçısıdır. 2003-cü ilin 9-10 avqust tarixində «Sahibkar qadınlar üçün təlim» kursunu bitirib sertifikat alıb. AZETA-nın təşkilatçılığı ilə təşkil olunan Zaqafqaziya İngilis dili müəllimlərinin I qurultayının iştirakçısı olmuş, Amerika Beynəlxalq Təhsil Şurası ACTR/ACCELS və Amerika Birləşmiş Ştatları Dövlət Departamentinin dəstəyi ilə 2003-cü ildə keçirilmiş «İngilis dili və Amerika ölkəşünaslıq fənləri tədrisi üzrə yüksək mükafatlar» Proqramı əsasında həyata keçirilən müsabiqənin birinci turunun qalibi, «İnformasiya və kommunikasiya Texnologiyalarının təhsilə tətbiqi üzrə müəllimlərin peşəkarlıq səviyyəsinin təkminləşdirilməsi» mövzusunda treninq iştirakçısı olub. 2012-ci ildə Azərbaycan Respublikası Təhsil Nazirliyi İxtisasartırma Təhsili haqqında birinci dərəcə sertifikat almışdır. 2012-ci ilin 1—13 oktyabr tarixlərində Azərbaycan Respublikası Təhsil Nazirliyi və UNİSEF-in orta məktəb üzrə fənn müəllimləri üçün ixtisasartırma təhsilinin 2 modulu üzrə «Ümumi orta təhsil səviyyəsi üzrə yeni fənn kurikulumlarının tətbiqi və Fəal/İnteraktiv təlim» mövzusunda təlimçilər üçün təlim kursu treyninqinin iştirakçısı olmuşdur.

Vəfa Səmədova dərsi qruplarla iş formasında qurmuşdu. Mövzu «Ev heyvanları» adlanırdı. Hiss olunurdu ki, müəllim öz ixtisasını dərindən bilir. Gözəl tələffüzü var. Sinif səviyyəsində dil mühiti yarada bilib. Şagirdlərin lazımı səviyyədə lüğət fondu var. Dialoqa girə, sərbəst fikir ifadə edə bilirlər. Müəllim movzunu əhatəli çatdırmaq uçun alternaiv variantlardan istifadə edərək təlimdə novatorluq nümayiş etdirirdi. Həqiqətən, əgər müəllim biliklərə dinamik yanaşmağı, onları ardıcıl və sistemli inkişaf etdirməyi qarşısına məqsəd qoyursa o, daim öz səriştəliliyi və təcrübəsi ilə diqqət mərkəzində olacaqdır. Vəfa müəllim də bu nöqteyi-nəzərdən çox məharətlə ilk andan bizim diqqətimizi cəlb etdi. Dərs İKT-nin tətbiqi ilə qurulmuşdu. Hazırlanan slaydlar məzmunlu, əhatəli və dinamik olub, uşaqları maraqlandıra bilirdi. Şagirdlər çox fəal idilər və bir-birindən maraqlı cavablar verirdilər. Müəllim uşaq aləminin sehrinə düşməklə yanaşı, özünün ecazkar bir dünyasını yaratmaqla, iştirakçıların da diqqətini cəlb edə bilmişdi. Uşaqlar tək-tək heyvanları təqlid edir, digərləri isə adlarını söyləyirdilər. Müəllim iş stolunun üstündə oyuncaqlarla mini-heyvanxana yaratmışdı. Amma, ev və çöl heyvanlarının modelləri qarışıq yığılmışdı. Tapşırıq alan şagird gəlir, onları fərqləndirir və onu təqlid edirdi. Hiss olunurdu ki, müəllim uşaqları ülvi, pak bir varlıq kimi dəyərləndirir.

Dərsin müasirlik ruhunda təşkili, müəllimin texnoloji hazırlığı son dərəcə xüsusi əhəmiyyət kəsb edir. Müəllim müasir dərsin mərhələlərinə lazımı qaydada yanaşır, fəal təlim metodlarından yerli-yerində istifadə edirdi. Bu gün tədris prosesində İKT-nin tətbiqində dərsi daha da maraqlı və yaddaqalan edən ən güclü faktordur.

Aydın məsələdir ki, şagirdlərin mənimsədikləri, yiyələndikləri bacarıq və vərdişlərin tətbiqi imkanlarını özündə əks etdirən kurikulum müəllimlərin yaradıcılıq imkanlarının genişlənməsinə şərait yaradır. Bu gün müəllim subut etdi ki, o, təkcə verilən metodik göstərişlər və dövlət vəsaitləri ilə kifayətlənmir, özünün biliyindən, potensial imkanından istifadə edərək tədris prosesinə yaradıcılıqla yanaşır. Yeni pedaqoji təfəkkür məhz bunu tələb edir. O, bacarıqla şagirdlərin məntiqi mühakimə yürütmək bacarığını, intuisiyasını inkişaf etdirir və fənnə marağı artırırdı. Beləliklə, ilk qəhrəmanımız Vəfa Ədilova oldu.

**(Ardı var).**

---

Fransada nəşr olunan nüfuzlu regional «Qərbi Fransa» qəzeti Fransanın Leql və Azərbaycanın Naftalan şəhərlərinin qardaşlaşmasına dair rəsmi sənədin imzalanması ərəfəsində ölkəmizə xüsusi nömrə həsr etmişdir. Leql şəhəri bundan əvvəl Almaniyanın Clausthal Zellerfeid və Slovakiyanın Spisska Nova-Ves şəhərləri ilə qardaşlaşmışdır.

## «Qərbi Fransa» gündəlik nüfuzlu qəzeti Azərbaycana xüsusi nömrə həsr etmişdir

Məqalələrdən biri Leq şəhərinin hələlik Fransada mer binası qarşısında dörd ölkənin (Fransanın, Almaniyanın, Slovakiyanın və Azərbaycanın) bayrağının dalğalandığı yeganə şəhər olduğuna, Leqlin Molyer Kollecinin idmançılarının Naftalanda həmkarları ilə yarışlar keçirdiyinə, istedadlı Azərbaycan cazmenlərinin konsertinə həsr olunmuşdur.

Digər məqalələrdə isə Leqlin Azərbaycanla Avropa arasında əsas körpü rolu oynayacağı, Heydər Əliyev fondu tərəfindən Orn departamentinin 30 icmasına yardım göstərildiyi vurğulanmışdır.

«Bakı yaxşı tanınmaq üçün Ornu seçdi» başlığı altında və digər dərc olunmuş məqalələrdə Fransanın Azərbaycanın müstəqilliyini ilk tanıyan ölkələrdən biri olmasına, torpaqlarımızın 20 faizinin Ermənistan tərəfindən işğalına, Fransa və Azərbaycan iş adamlarının iştirakı ilə keçirilən İqtisadi Foruma, Fransada 3 min azərbaycanlının yaşamasına dair məlumatlar yer almışdır.

Qəzetdə Azərbaycanın kənd təsərrüfatı haqqında məlumatlar, iqtisadi və mədəni əlaqələrin genişləndirilməsi, Naftalanın Leqlin qardaşı olacağı, azərbaycan merlərinin Orna səfərləri, Leqldə «Qafqazın mirvarisi» adlı təşkil olunmuş sərgiyə, çoxlu sayda şəkillərə və sair məsələlərə də yer verilmişdir.

**Nadir ATAKİŞİYEV.**